# XİDMƏTLƏRDƏN İSTİFADƏ ŞƏRTLƏRİ

## 1. ÜMUMİ MƏLUMAT

Hazırki resurs ziyarətçilərindən XAHİŞ EDİRİK BU ŞƏRTLƏR İLƏ YAXINDAN TANIŞ OLUB ONU QƏBUL ETDİKDƏN SONRA İSTİFADƏ ETSİNLƏR! Sayta daxil olmaqla və saytın təklif etdiyi xidmətlərdən istifadə etməklə siz bu şərtlərə əməl etməyi öz öhdənizə götürürsünüz. Əgər şərtlərlə razı deyilsinizsə, xahiş edirik saytdan istifadə etməyəsiniz və səbəbləri təhlil etmək üçün administratora bildirəsiniz.

## 2. İSTİFADƏÇİ SUBYEKTLƏRİ

Bu sayt yalnız Azərbaycan Respublikasının vətəndaşları və qanunvericiliyə müvafiq olaraq qeydiyyatdan keçmiş hüquqi şəxslərin istifadəsi üçün nəzərdə tutulub.
Bu saytdan Azərbaycan Respublikası ərazisindən tam fəaliyyət qabiliyyətli şəxslər
yararlana bilərlər.

## 3. TƏTBİQ OLUNAN QANUNVERİCİLİK

Bu saytın fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq həyata keçirilir.
Saytda mövcud olan materiallar, məhsullar, xidmət və informasiyalar bu sahədə beynəlxalq standartlara və praktikaya uyğunlaşdırıla bilər.

Burada təqdim olunan məhsul və ya xidmətin hüquqi statusu Azərbaycan Respublikasının qanunvericiliyindən fərqlidirsə, bu barədə saytın administratoruna məlumat veirlməsi xahiş olunur.

**4. MƏSULİYYƏT**

İstifadəçi bu saytdan istifadə və məlumatların mübadiləsinin nəticələrinə görə özü məsuliyyət daşıyır. Bu sayt vasitəsilə hər hansı digər şəxslərə məxsus məlumatların onların razılığı olmadan və qanunvericiliyə zidd şəkildə toplanılması qadağandır. Bu sayt ilə əlaqədar hər hansı qanunsuz hərəkətlər qanunvericiliyə müvafiq olaraq öz həllini tapacaqdır.
İstifadəçi bu Saytdan və Xidmətlərdən yalnız məzmununa uyğun, düzgün və qanuna riayət edərək istifadə etməli və aşağıdakı hərəkətlərə görə məsuliyyət daşıyır: ədəbsiz, pornoqrafik, hədələyici, rasist, təhlükəli, təhqiredici, iftiralı, şəxsi və müəlliflik məlumatları yayan və ya başqa şəkildə etiraza səbəb olan hərəkətlər, mülki, inzibati və ya cinayət məsuliyyətinə cəlb edilməyə səbəb ola biləcək sistemin və ya şəbəkənin təhlükəsizliyini pozan hərəkətlər.
Bu saytın oxşarının yaradılması qadağandır.
İstifadəçi onunla bağlanılan müqavilə şərtlərinə riayət etməlidir

**5. İSTİNADLAR**

Bu sayta mövcud olan ümumi məlumatlardan istifadə edildikdə saytın elektron ünvanına istinad edilməli. Saytdan kommersiya və ya reklam məqsədləri üçün istifadə olunmasına icazə verilmir.

**6. YEKUN MÜDDƏALAR**

Hazırki saytın strukturu və xidmətlər çərçivəsi istifadəçilərin razılığı olmadan dəyişdirilə bilər.